

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 105 (23.747)

*11 iyun 2021-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*İcmal*

## Ümummilli lider Heydər Əliyevin arzularının gerçəkləşdiyi, inkişaf sahəsində liderliyini əzmkarlıqla qoruyub saxlayan NAXÇIVAN

### *Ötən ayın ictimai-siyasi hadisələrinin təhlili bu qənaəti bir daha təsdiqləyir*

*Azərbaycan xalqının xilaskarı, müstəqil Azərbaycanın qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin dünyaya gəlişi ilə əlamətdar olan may ayı bu il dahi öndərin siyasi irsinin layiqli davamçısı, Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına on beşinci səfəri ilə muxtar respublikamız üçün ikiqat siyasi, tarixi mahiyyət və dəyər kəsb edir. Ölkə başçımızın bu səfəri ümummilli liderin tarixi zəfər sonrası ilk doğum gününü Naxçıvanda qeyd etməsi ilə tarixə yazıldı. Eyni zamanda Naxçıvanın inkişaf və sabitlik diyarına çevrildiyini, çoxcəhətli və dinamik inkişafı ilə liderliyini bundan sonra da qoruyub saxlayacağını təsdiqləməsi ilə də tarixləşdi.*



May ayının 10-da Naxçıvan Muxtar Respublikasına səfər edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rəsmi qarşılanmadan sonra ilk olaraq xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət edib, abidənin önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini ehtiramla yad edib.

Dövlətimizin başçısı səfər çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağının təqdimatında iştirak edib. Yeni uçuş-enmə zolağı ilə bağlı görülən işlər barədə məlumat verilərkən qeyd olunub ki, ümumi uzunluğu 3300, eni 60 metrə malik, yükgötürmə qabiliyyəti 400 ton olan uçuş-enmə zolağında istənilən hava şəraitində təyyarələrin təhlükəsiz qəbulu və uçuşu üçün müasir avtomatlaşdırılmış sistem yaradılıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin idarə edilməsi sistemi kompleks şəkildə davam etdirilir və bu məsələdə Naxçıvan Muxtar Respublikasının müdafiəsi diqqət mərkəzində saxlanılır. Dövlətin muxtar respublikaya göstərdiyi güclü dəstək faktı Naxçıvanı özünü xarici təhdidlərdən tam müdafiə etmək iqtidarında olan bölgəyə çevirib. Bunu Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin səfəri çərçivəsində Naxçıvan Muxtar Respublikasında Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromunun açılışında iştirakı, buradakı şərait bir daha təsdiqlədi.

Dövlət başçısının 2012-ci ilin iyulunda imzaladığı Fərmanla Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan "ASAN xidmət" mərkəzlərinin yaradılması müstəqillik tariximizdə informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin istifadə olunduğu yenilik kimi muxtar respublikamızda da tətbiq edilməyə başlanılıb. Ölkə başçısının Naxçıvan şəhərində "ASAN xidmət" Mərkəzinin binasının tikintisi ilə tanışlıq zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dövlətimizin başçısına bildirib ki, inşasına ötən il başlanan mərkəzin tikintisi sürətlə davam edir.

Azərbaycan Respublikası Prezidentinin qalib Ali Baş Komandan kimi ümummilli liderin tarixi qələbə sonrası ilk doğum günündə ulu öndərin ata yurduna gəlməsinin dərin siyasi rəmzi mənası vardır. Xatırladaq ki, Vətən müharibəsi başlayan kimi, Naxçıvanın qəhrəman övladları da torpaqlarımızın işğaldan azad olunması üçün müqəddəs savaşa atılıblar, şəhidlər veriblər. Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları zəfər yolunu Şuşada tamamlayaraq Böyük Qələbənin təmin edilməsində müstəsna qəhrəmanlıq göstəriblər. Azərbaycan Respublikasının Prezidenti mayın 10-da Naxçıvan şəhər qəbiristanlığında Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət edib, məzarların üzərinə, həmçinin babası Əlirza Əliyevin məzarının üzərinə gül dəstəsi qoyaraq xatirələrini ehtiramla anıb.

Milli dəyərlərimizin yaşadıldığı və təbliğ olunduğu qədim diyarımıza səfər zamanı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan Filialının da açılışı olub. Açılış zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dövlətimizin başçısına görülən işlər barədə məlumat verib. Prezident cənab İlham Əliyev filialda yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, dövlət başçısının 2018-ci ilin fevralında imzaladığı "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən Naxçıvan Xalça İstehsalı Emalatxanası, Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsi fəaliyyətə başlayıb.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının da açılışında iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ölkə başçısına muxtar respublikanın ən böyük səhiyyə müəssisəsi – 290 çarpayılıq hospital barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Süni Mayalanma Mərkəzinin açılışında iştirak edib. Ölkə başçısına mərkəzdə görülən işlər barədə məlumat verilib, yaradılan şəraitlə tanışlıq olub.

Dövlət başçısının 2018-ci ilin fevralında imzaladığı "Naxçıvan Muxtar Respublikasında heyvandarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" və 2019-cu ilin noyabrında imzaladığı "Naxçıvan Muxtar Respublikasında Süni Mayalanma Mərkəzinin yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən yaradılan mərkəzin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına da geniş imkanlar verib. Bu da Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələri kimi, kənd təsərrüfatının inkişafının da daim diqqət mərkəzində saxlanılmasının nəticəsidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mayın 10-da "Ordubad rayon mərkəzi və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin açılışında iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dövlətimizin başçısına layihə barədə məlumat verib. Bildirilib ki, layihənin icrası sayəsində Ordubad şəhərində və Şəhriyar qəsəbəsində, ümumilikdə, 13 min 500 sakin beynəlxalq standartlara cavab verən təmiz içməli su ilə təmin olunacaq. Prezident cənab İlham Əliyev Ordubad şəhərinə içməli suyun verilməsini bildirən düyməni basıb.

Dövlətimizin başçısı daha sonra ictimaiyyət nümayəndələri ilə görüşüb. Prezident cənab İlham Əliyev həmin görüşdəki çıxışında deyib: ***"Burada, Naxçıvan Muxtar Respublikasında bir çox önəmli tədbirlərdə, açılışlarda iştirak etdim. Respublika inkişaf edir, çiçəklənir, bütün məsələlər öz həllini tapır – təhlükəsizlik, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı, infrastruktur. Biz bundan sonra da bu yolla gedəcəyik ki, ölkəmizin hər bir yerində, əlbəttə ki, bizim tarixi diyarımız olan Naxçıvan Muxtar Respublikasında işlər həmişə yüksək səviyyədə görülsün, insanlar daha da yaxşı yaşasınlar və ölkəmiz daha da güclənsin".***

Sonra ictimaiyyət adından Cəbi Quliyev çıxış edərək Naxçıvanda davamlı inkişafın təmin edildiyini vurğulayıb və ölkəmizin başçısına minnətdarlığını bildirib. Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin Ordubad şəhərindəki büstü önünə gül dəstəsi qoyub.

Müasir yol infrastrukturunun yaradılması Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsidir. Bunu Prezident cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" və "Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" sərəncamlarına əsasən Culfa-Ordubad magistral yolunun inşası da təsdiq edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mayın 10-da Culfa-Ordubad magistral avtomobil yolunun açılışında iştirak edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri dövlətimizin başçısına yolun texniki göstəriciləri barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti mayın 10-da Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə də tanış olub. Ali Məclisin Sədri dövlətimizin başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat verib. Bildirilib ki, son illərdə yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına imkan yaradıb. Araz çayı üzərində tikilən Ordubad Su Elektrik Stansiyasının gücü 36 meqavatdır. Stansiya üçün tutumu 1,5 milyon kubmetr olan su anbarı inşa olunub. Su elektrik stansiyasında ortaillik elektrik enerjisi istehsalı 190 milyon kilovat-saat nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti mayın 10-da Ordubad dəmir yolu stansiyasında aparılan yenidənqurma işləri ilə də tanış olub. Ali Məclisin Sədri dövlət başçısına stansiya barədə məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikasında aparılan quruculuq işləri dəmir yolu sistemini də əhatə edib. Bu tədbirlərin davamı olaraq Ordubad sərnişin vağzalı və yol sahəsi üçün yeni inzibati binalar tikilib, stansiyanın İdarəetmə Mərkəzi, yük anbarı və yarımstansiya binası əsaslı şəkildə yenidən qurulub. Stansiyanın 2-ci qəbul-göndərmə yolu, sərnişin platformaları da yenilənib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib. Müsahibədə ümummilli lider, dünya şöhrətli siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətindən, Naxçıvanın müasir və hərtərəfli inkişafından bəhs edilib. Ölkə başçısı müsahibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun peşəkar döyüş qabiliyyətini, üç il bundan əvvəl keçirilmiş uğurlu Günnüt əməliyyatını Ali Baş Komandan kimi təhlil edib, Vətən müharibəsində Naxçıvan Ordusunun hərbçilərinin – həm xüsusi təyinatlıların, həm digər birləşmələrin hərbçilərinin fəal iştirak etmələrindən, şəhidlər vermələrindən, böyük fədakarlıq göstərmələrindən danışıb. Ölkə başçısı müsahibəsində Ordubad dəmir yolu stansiyasının yenidən qurulmasını Zəngəzur dəhlizinin açılması istiqamətində tarixi addım kimi dəyərləndirib. Azərbaycan Respublikasının Prezidenti Dağlıq Qarabağ münaqişəsinin birdəfəlik həll olunduğunu, Azərbaycanda bütün proseslərin müsbət istiqamətdə getdiyini bir daha qətiyyətlə bildirib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri zəngin təəssüratlarla başa çatıb.

Vətənimizin bugünkü inkişafı və xalqımızın rifahı, heç şübhəsiz ki, ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən, düşünülmüş siyasətinin bəhrələridir. Görkəmli dövlət xadiminin ölkəmizə hər iki rəhbərliyi dövrü, eləcə də Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi illər müstəqil dövlətçilik tariximizin şanlı səhifələridir. Bu gün ümummilli lider Heydər Əliyevin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin iqtisadi və siyasi mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası da inkişafın keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada makroiqtisadi sabitliyi bərqərar etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Həyatını Azərbaycanın əbədi müstəqilliyinə, qüdrətli dövlətçiliyinə və davamlı inkişafına həsr etmiş əbədiyaşar liderimizin doğum günü hər il xalqımız tərəfindən dərin ehtiram və minnətdarlıq hissi ilə qeyd edilir. Ulu öndərin builki doğum günü isə ata vəsiyyətini ləyaqətlə yerinə yetirən layiqli siyasi varis – Prezident cənab İlham Əliyevin ərazi bütövlüyümüzün təmin olunması, Qarabağın işğaldan, Naxçıvanın isə çoxillik blokadadan azad edilməsinə nail olmasına görə ikiqat sevinc hissi ilə qeyd olunur. Mayın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə

*Ardı 2-ci səhifədə*

gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də ulu öndərin xatirəsini ehtiramla yad ediblər. Həmin gün muxtar respublikamızın bütün rayon mərkəzlərində də analoji tədbirlər keçirilib.

Azərbaycanda XX əsrin əvvəllərindən başlayan milli müstəqillik uğrunda mübarizə əsrin sonlarında dövlət müstəqilliyimizin yenidən və sarsılmaz şəkildə bərpa olunması ilə nəticələnmişdir. Müstəqilliyin əsası isə ilk olaraq məhz ümummilli lider tərəfindən Naxçıvan Muxtar Respublikasında qoyulmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərməsi dövlətçiliyimizi və müstəqilliyimizi məhv olmaq təhlükəsindən xilas etmiş, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvanda qaldırılmışdır. Ümummilli liderimizin 1990-1993-cü illərdə Naxçıvanda dövlət müstəqilliyimizin bərpası ilə bağlı qəbul etdiyi tarixi qərarlar Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycanın dövlətçilik yoludur. Ölkə Prezidenti cənab İlham Əliyev bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sabitliyin və inkişafın təminatçısına çevirib. Müstəqilliyimiz möhkəmləndirilib, sosial-iqtisadi inkişaf təmin edilib, güclü ordu yaradılıb. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması bunu bir daha təsdiq etdi.

Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Respublika Günü qeyd edilib, Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası təltiflərinin, eləcə də Prezident mükafatlarının təqdimatı keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış edərək bu il xalqımızın 28 May – Respublika Gününü dövlətçilik tariximizdə əbədi qalacaq böyük Qələbə ilə qeyd etdiyini bildirib, Qələbənin qazanılmasında şəhid olmuş qəhrəmanların əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Ali Məclisin Sədri çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın dövlətçilik və ictimai-siyasi fikir tarixində mühüm yer tutduğunu, bütün Şərqdə, o cümlədən türk-islam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olduğunu vurğulayıb, ilk müstəqil dövlətimizin fəaliyyətini siyasi təhlil edərkən deyib: ***"Həmin dövrdə Naxçıvan daxili və xarici maraqların toqquşduğu əraziyə çevrilmişdi. Fürsətdən istifadə edən ermənilərin işğal planları isə vəziyyəti daha da çətinləşdirmişdi. Belə bir vəziyyətdə – 1918-ci ilin noyabrında Naxçıvanda yaradılmış Araz-Türk Cümhuriyyəti Naxçıvanın Ermənistan daşnak hökuməti tərəfindən ilhaq edilməsinin qarşısını almış və tarixi Azərbaycan torpaqlarını qoruyub saxlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Naxçıvanla bağlı mövqeyi və yerli sakinlərin siyasi iradəsi isə sonrakı dövrdə Azərbaycanın tərkibində Naxçıvanın muxtariyyət statusu qazanmasında mühüm rol oynamışdır".***

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının mübarizliyini və yenilməzliyini bir daha dünyaya nümayiş etdirdi. Dövlət-xalq-ordu birliyi 30 il işğal altında olan torpaqların düşmən tapdağından azad edilməsi ilə nəticələndi. Tarixi ədalətin bərpa olunmasında Naxçıvanın igid oğulları da şücaət göstərmişlər.

Mayın 3-də Vətən müharibəsi zamanı itkin düşən şəhidimiz Yusifov Əli Süleddin oğlunun cənazəsi muxtar respublikaya gətirilib. Naxçıvan Beynəlxalq Hava Limanında şəhidimizin qarşılanma mərasimi olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, dövlət və hökumət nümayəndələri, hərbçilər və şəhidin ailə üzvləri tədbirdə iştirak ediblər. Sonra şəhidin üçrəngli bayrağımıza bükülmüş cənazəsi hərbçilərin müşayiətilə mərasim yerinə gətirilib. Şəhidin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ali Məclisin Sədri və tədbir iştirakçıları şəhidin xatirəsinə ehtiramlarını bildiriblər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açılıb. Sonra "Qurani-Kərim"dən ayələr oxunub, şəhid cənazəsinin önündən keçilib. Şəhidin cənazəsi doğulduğu kəndə yola salınıb. Ali Məclisin Sədri şəhidin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verib.

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da Vətən müharibəsi veteranları, şəhid ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. Onlar üçün mənzillər tikilir, sağlamlıq imkanları məhdud şəxslərə minik avtomobilləri verilir. Muxtar respublikada sağlamlıq imkanları məhdud şəxslərin sosial müdafiəsinə xüsusi qayğı ilə yanaşılır. Müvafiq kateqoriyadan olan vətəndaşlar müxtəlif sosial proqramlara, aktiv məşğulluq tədbirlərinə cəlb edilir, mənzil və avtomobillərlə təmin olunurlar. Mayın 7-də Naxçıvan şəhərində Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, eləcə də Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında sağlamlığını itirmiş 1 nəfərə "Xəzər-LX" markalı minik avtomobilləri təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edərək deyib ki, xalqımızın vətənpərvərliyi özünü İkinci Qarabağ müharibəsində bir daha göstərdi. Azərbaycan Respublikası Prezidentinin qətiyyəti, Azərbaycan Ordusunun gücü və Azərbaycan xalqının vətənpərvərliyi nəticəsində torpaqlarımız işğaldan azad olundu. Bu gün həmin torpaqlarda bərpa işləri həyata keçirilir.

***"Vətənpərvərlik olan yerdə ölkə inkişaf edir, müstəqillik qorunur, dövlət-xalq birliyi yaranır"***, – deyən Ali Məclisin Sədri vurğulayıb ki, Vətən müharibəsində torpaqlarımızın azad olunması uğrunda 10 minlərlə könüllünün iştirakı və ordumuzla həmrəylik nümayiş etdirməsi bu birliyin nəticəsidir. Vətənpərvərlik nümunəsi göstərərək xidməti vəzifələrini layiqincə yerinə yetirmiş şəxslərin vətənpərvərliyi, onlara dövlət qayğısı gənclərimizə örnəkdir. Ali Məclisin Sədri avtomobillə təmin olunanlara Vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə təşəkkürünü bildirib, avtomobillərin açarlarını təqdim edib.

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılan tarixi Qələbənin 76-cı ildönümünü qalib və məğrur, ərazi bütövlüyünü qorumağa, Vətəni müdafiəyə qadir bir xalq kimi qeyd etmişdir. Faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycan xalqının böyük xidmətləri olmuşdur. 1941-1945-ci illər müharibəsində igid Azərbaycan oğulları xalqımıza xas qəhrəmanlıq və hərbi şücaət nümunəsi göstərmişlər. Xalqımızın sarsılmaz iradəsi və inamı ön və arxa cəbhəni birləşdirmiş, faşizm üzərində qələbəyə mühüm töhfə vermişdir. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salmış, onların, təxminən, yarısı döyüş meydanlarından geri qayıtmamışdır.

Xalqımızın alman faşizmi üzərində tarixi Qələbədəki müstəsna rolunun siyasi-tarixi cəhətdən dövlət səviyyəsində yüksək qiymətləndirilməsi, ölkəmizdə müharibə veteranlarına dövlət qayğısı ilə bağlı düşünülmüş siyasətin də əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də sosial siyasətin əsas istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müharibə iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərilir. Qələbə bayramı ərəfəsində ölkə Prezidenti cənab İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması ənənə halını almışdır. Ölkə Prezidentinin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2021-ci il 29 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının daha bir ifadəsidir. Sərəncamdan irəli gələn vəzifələrin icrası muxtar respublikada da həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında da müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır. Hər il muxtar respublikada faşizm üzərində qələbə günü qeyd olunur. Müharibə veteranları və onların ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur.

Mayın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvan şəhərindəki Xatirə Kompleksinə gəlib, veteranlarla görüşüb, onları qələbə münasibətilə təbrik edib.

Sonra Ali Məclisin Sədri abidə önünə gül dəstəsi qoyub, müharibədə həlak olmuş azərbaycanlıların xatirəsinə ehtiramını bildirib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də müharibədə həlak olanların əziz xatirəsini ehtiramla yad ediblər. Naxçıvan Muxtar Respublikasının rayon mərkəzlərində də analoji tədbirlər keçirilib.

Ötən ay Naxçıvan Muxtar Respublikası Ali Məclisində bir sıra rəsmi görüşlər ilə də yaddaqalan olmuşdur. Mayın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros, mayın 20-də isə Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vada Cüniçi ilə görüşüb. Ali Məclisin Sədri Fransa və Yaponiyanın Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin əhəmiyyətini vurğulayıb. Səfirlər səmimi qəbula görə minnətdarlıq edib, ölkələrarası əlaqələrdən və bu əlaqələrin inkişafında Azərbaycanın Naxçıvan Muxtar Respublikasının müstəsna rolundan danışıblar.

Mayın 5-də Asiya İnkişaf Bankının Azərbaycandakı Daimi Nümayəndəliyinin ölkə üzrə yeni direktoru xanım Kandis Makdeyqan ilə görüş zamanı isə Ali Məclisin Sədri Asiya İnkişaf Bankı ilə muxtar respublika arasındakı əməkdaşlığı diqqətə çatdırıb, təqdim olunan yeni layihələrin əhəmiyyətini qeyd edib.

Muxtar respublikada rəssamlığın və təsviri sənətin inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin müvafiq sərəncamı ilə bu il Rəssamlar Birliyinin 50 illik yubileyi qeyd olunur. Ötən dövrdə rəssamlıq sənətinin inkişafı diqqətdə saxlanılmış, ali təhsil ocaqlarında müvafiq ixtisaslar açılmış, rəssamlıq sənətinin tədrisi üçün hərtərəfli şərait yaradılmışdır. 2012-ci ildən başlayaraq "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalına start verilmiş, 4 beynəlxalq rəsm festivalı keçirilmişdir. Həmin festivallarda, ümumilikdə, 29 ölkədən 172 rəssamın 181 əsəri təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalı keçirilib. Qeyd edək ki, festivalda ölkəmizin digər bölgələrindən 18, Naxçıvan Muxtar Respublikasından isə 22 olmaqla, 40 rəssam iştirak edib. Festivalda Türkiyə, İran, Rusiya, Özbəkistan, Türkmənistan və Kosovadan 23 rəssam onlayn şəkildə iştirak edib.

Mayın 25-də Naxçıvan şəhərindəki "Saat Meydanı" Turistik İstirahət Mərkəzində festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sərginin açılışında iştirak edib, artıq ənənə halını almış beynəlxalq rəsm festivalının əhəmiyyətini vurğulayaraq bildirib ki, festivallarda çəkilən əsərlər Naxçıvanın tarixini, təbiətini, müasir inkişafını fərqli yanaşmalarla özündə əks etdirir. Hər festivaldan sonra həmin əsərlərdən ibarət kataloqlar hazırlanıb nəşr etdirilir. Bununla da, festivallar tarixə çevrilir. Gələcəkdə həmin kataloqlara nəzər yetirənlər belə bir tədbirin ənənəvi şəkildə keçirildiyini görəcək və bunu davam etdirəcəklər. Ali Məclisin Sədri festival iştirakçılarına təşəkkür edib, rəssamlara yaradıcılıq uğurları arzulayıb və sərgiyə baxıb, festivalda çəkilən əsərlərdən aidiyyəti üzrə muzeylərdə nümayiş etdirilməsi barədə tapşırıqlar verib.

Əlverişli coğrafi mövqeyi və iqlim şəraiti muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Son illər yeni su və Günəş elektrik stansiyalarının tikilməsi enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə vermişdir. Xüsusilə "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Muxtar respublikada il ərzində istifadə olunan 430 milyon kilovat-saata yaxın elektrik enerjisinin 50 faizi bərpa olunan enerji mənbələrinin payına düşür. Məqsəd istifadə edilən elektrik enerjisinin 100 faiz bərpa olunan enerji hesabına ödəməkdir. Bu, ümumilikdə, ölkəmizin inkişaf göstəricisidir. Şərur rayonunun Zeyvə kəndində 5 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi də muxtar respublikada elektroenergetika sisteminin inkişafı sahəsində görülən işlərin davamıdır. Yeni stansiyanın istifadəyə verilməsi ilə Günəş elektrik stansiyalarının gücü 32 meqavata, illik istehsalı isə 50 milyon kilovat-saata çatdırılacaq. Mayın 26-da bəhs olunan elektrik stansiyası istifadəyə verilib, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Muxtar respublika rəhbəri yüksəkgərginlikli sınaq cihazlarına və stansiya üçün alınmış "Mitsubishi L200" markalı avtomobilə baxıb, sonra yeni stansiyanın istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib. Ali Məclisin Sədri 1990-cı illərdə Ermənistanın işğalçılıq siyasəti nəticəsində Naxçıvanın məruz qaldığı enerji böhranından, ötən illərdə muxtar respublikada elektrik enerjisi ilə təminat sahəsində görülən işlərdən danışıb.

Muxtar respublika rəhbəri yeni Günəş Elektrik Stansiyasının yeni iş yerlərinin yaradılması, yeni mütəxəssislərin formalaşması və ucuz qiymətə başa gələn enerji istehsalı olması baxımından əhəmiyyətliliyini vurğulayıb. Stansiyaya baxış zamanı məlumat verilib ki, Şərur rayonunun elektrik enerjisinə illik tələbatı 75 milyon kilovat-saata yaxındır. Bunun 10 faizini illik istehsal gücü 7,5 milyon kilovat-saat olan yeni stansiya ödəyəcəkdir. Müasir avadanlıqlarla təchiz olunan stansiyada elektrik enerjisi istehlakçılara itkisiz çatdırılacaqdır. Ali Məclisin Sədri növbəti Günəş Elektrik Stansiyasının tikilməsi üçün yerin müəyyənləşdirilməsi, Naxçıvan Dövlət Universitetində Elektroenergetika mühəndisliyi ixtisasında təhsil alan tələbələrin xarici ölkələrə kurslara göndərilməsi barədə tapşırıqlar verilib.

Muxtar respublikada həyata keçirilən kompleks quruculuq işləri çərçivəsində 2017-ci ildən kommunal xidmətlər də göstərmək baxımından bələdiyyələrin fəaliyyəti daha da gücləndirilir, onlar üçün müasir tələblərə cavab verən kommunal təyinatlı texnikalar alınır. Son illərdə 46 kommunal təyinatlı nəqliyyat vasitəsi, 2 xidməti minik avtomobili, 1360 məişət tullantısı konteyneri bələdiyyələrin və kommunal müəssisələrin istifadəsinə verilmişdir ki, bu da onların daha operativ işləmələrinə şərait yaratmışdır. Mayın 9-da muxtar respublika bələdiyyələrinə kommunal təyinatlı texnikalar təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib, çıxış zamanı hazırda Naxçıvanda 170 bələdiyyənin fəaliyyət göstərdiyini, bələdiyyələrin bu sahədə fəaliyyətinin qanunauyğun təşkil edilməsinin zəruriliyini vurğulayıb. Ali Məclisin Sədri bələdiyyələrin fəaliyyəti nəticəsində toplanan vəsait və dövlətin ayırdığı subsidiya hesabına yeni texnikalar alınmasını birgə fəaliyyətin nəticəsi kimi qiymətləndirib. Qeyd edilib ki, bələdiyyə mülkiyyətində olan torpaqlardan səmərəli istifadə olunmalı, əkilməli, icarə haqları və müqavilələri düzgün bağlanılmalıdır.

Ali Məclisin Sədri bələdiyyə sədrlərini yeni texnikaların təqdim olunması münasibətilə təbrik edib, işlərində uğurlar arzulayıb. Sonra texnikalara baxış olub. Məlumat verilib ki, yeni kommunal təyinatlı 15 traktor və qoşqusu bələdiyyələrinin istifadəsinə verildiyi yaşayış məntəqələrində əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsini yüksəldəcək, məişət tullantılarının vaxtında daşınmasına şərait yaradacaqdır.

*May ayının ümumi mənzərəsi ölkə başçısının rəhbərliyi və gündəlik qayğısı ilə muxtar respublikamızın davamlı inkişaf və tərəqqi etdiyini, Azərbaycan Respublikası Prezidentinin də dediyi kimi, son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen diyara çevrildiyini bir daha təsdiqləyir. Ölkə başçısının növbəti səfəri, bütünlükdə, onu isbat etdi ki, Naxçıvan Muxtar Respublikasında daha sürətli inkişaf istiqamətində görülən işlər muxtar respublikanın inkişafında yeni mərhələnin əsasını qoymuşdur. Prezident cənab İlham Əliyevin də dediyi kimi:* ***"...muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır".***

**Mehriban SULTAN**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

***Vərəm yer üzərində geniş yayılmış xroniki infeksion xəstəlikdir. Hazırda planet əhalisinin üçdəbir hissəsi vərəm xəstəliyindən əziyyət çəkir. Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata əsasən hər il on milyon insan vərəmlə xəstələnir və bunun üç milyonu dünyasını dəyişir. Dünyada hər 10 saniyə ərzində bir nəfər vərəm xəstəliyindən vəfat edir. Epidemioloji vəziyyət ağır olan ölkələrdə vərəm xəstəliyindən ölənlərin 75 faizi əmək qabiliyyətli, yəni 15-50 yaşlarda olan insanlardır.***

# Bioloji faktora sosial rifahın təsiri

Mütəxəssislər bu qənaətdədirlər ki, vərəm xəstəliyi əsrlərboyu epidemiya halını almış, müxtəlif ölkələrdə geniş yayılaraq çoxsaylı insan tələfatına səbəb olmuşdur. Lakin vərəm epidemiya deyil, sadəcə olaraq infeksion xəstəlikdir, həm də genetik daşıyıcılığa malikdir. Bu, məsələnin bir tərəfidir. Digər tərəf isə onlarla suala cavab axtarır. Gəlin görək vərəm xəstəliyi hansı mühitdə daha da aktivləşir, hansı şəraitdə onun genetik daşıyıcılığı fəallaşır və əksinə, müalicəsi, azalması mümkün olur.

Naxçıvan Muxtar Respublikası Səhiyyə nazirinin müavini – Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Zeynəb Mustafayeva ilə bu barədə fikir mübadiləsi apardıq. Zeynəb xanım deyir ki, infeksion xəstəliklərin dünyada yayılmasının konkret səbəblərindən biri də ardıcıl iqtisadi böhran və gərginliklərin olmasıdır. Vərəm xəstəliyindən ölənlərin sayı digər infeksion xəstəliklərdən ölənlərin sayından çoxdur və o təkcə insan orqanizmi ilə xəstəliktörədicisi arasında olan tibbi – bioloji problem deyil, həm də sosial problemdir. Çünki sosial faktorlar insan sağlamlığına təsir edən amillərdir. Konkret olaraq, həyatın maddi bazası, sanitar mədəniyyəti, məşğulluğun növü, yaşayış, mənzil şəraiti və sair insan sağlamlığında böyük rol oynayır.

Söhbətimizin bu yerində, yəni vərəm xəstəliyinin tək bioloji deyil, sosial problem olduğunu həkimdən dinləyən an xəyalən muxtar respublikanın 30 il bundan əvvəlki dövrünə qayıdıram. O dövrə ki Naxçıvanda bu xəstəliyin göstəricisi artıq həyəcan təbilinin çalınmalı olduğu vaxtın çatdığını "söyləyirdi". Zeynəb xanımın statistik göstəricilərə əsasən dediyinə görə, ötən əsrin 90-cı illərində əhalinin hər 10 min nəfəri arasında vərəmə yoluxmuş xəstələrin 80-90 nəfər təşkil etməsi epidemioloji vəziyyətin təhlükəli həddə çatmasından xəbər verirdi. Bu problemə daha çox kənd yerlərində rast gəlinir, vərəm xəstəliyinə yoluxan bəzi şəxslərin rəsmi qeydiyyata düşməməsi çox ağır fəsadlara yol açırdı. Təkcə 1990-cı ildə ilkin vərəmə yoluxanların sayı 288 nəfər təşkil edib. Ağciyəri dağılma fazasında olan 44 nəfər, vərəm pozitivli 31 nəfər qeydə alınıb.

Bəli, bu göstəricilərin əsasında genetik amillə yanaşı, sözsüz ki, sosial həyat, yaşam tərzi, ətraf mühit dayanırdı. Bir qədər o dövrə ekskurs edək. 2007-ci ildə "Şərq qapısı" qəzetində bir yazım dərc olunmuşdu: "Tütün iyi, yoxsa çörək ətri?" Elə bu yazı ilə də yola çıxmaq istəyirəm. Yazı o vaxt yazılmışdı ki, artıq muxtar respublikada çökmüş iqtisadiyyatın dirçəldilməsinə, quruculuq işlərinə bir neçə il idi ki, başlanılmışdı. Şəhər və kəndlərimizdə yağışın altında, zığ-palçığın içində qalan, köhnə-köhnə, parça-tikə materiallarla quraşdırılaraq bir-birinə söykənən, heç bir şəraiti – su, kanalizasiya sistemi olmayan çayxanalar sökülürdü və camaatın bir hissəsi, hansı ki həmin çayxanalarda qazanc və əyləncə ilə məşğul idilər, buna etiraz edirdilər. Həmin vaxt artıq bir neçə il idi ki, Naxçıvanda torpaq islahatları həyata keçirilmiş, insanlar torpaq paylarını almışdılar. Lakin çayxanalardakı avara həyat tərzi hələ də onları zəhmətə qatlaşmaqdan uzaqlaşdırırdı. Bütün yaş qruplarından olan insanlar, əsasən, gənclərimiz həmin çayxanalarda səhərdən gecə saatlarınadək siqaretin dumanında əyləşir, antisanitariya şəraitində – ləyəndə yaxalanıb rəngi çirkdən bilinməyən dəsmalın üzərinə çevrilən stəkanlarda çay içir, nərdi elə çırpırdılar ki, səsi kəndin o başına gedib çıxırdı. Yeniyetmə və gənclər məktəbdən yayınır, çayxanalarda, bazarlarda işləyir, sağlamlıqları və gələcək həyatları təhlükəyə məruz qalırdı. Həmin yazını yazmaqda məqsədim muxtar respublikamızda başlanan işlərə müvafiq olaraq insanları tütün qoxulu çayxanalardan açıq, təmiz havada torpaqlarını əkib-becərməyə, sağlam həyat tərzi keçirməyə çağırmaq idi. Çox təəssüf ki, bugünkü gənc həkim və mütəxəssislər həmin o çayxanaları görməyiblər. Görmüş olsaydılar, bilərdilər ki, nə üçün o zamanlar Naxçıvanda vərəm xəstəliyi o həddə çatmışdı.

Həmin xəstəlik ocaqları söküldü, insanlar torpağa meyil etdilər, dünən bundan narazı olanlar bu gün ən fəal, yaxşı gəlir əldə edən fermer, sahibkar, ailə təsərrüfatçılarıdır. Onlar həm də ikiqat qazanc əldə etdilər: həm sağlamlıqlarına, həm də dolanışıqlarına. Bir vaxt çayxanalarda, bazarlarda, marşrut avtobuslarda əməyə cəlb olunan uşaq, yeniyetmə və gənclərlə müqayisədə bu gün həmin kateqoriyadan olan əhali qrupu muxtar respublikada sağlam həyat tərzi keçirməklə yüksək səviyyədə təhsil alır, ixtisaslı kadrlar kimi yetişir, idmanın bütün növləri ilə məşğul olur, beynəlxalq idman yarışlarında iştirak edir, bütün sahələrdəki uğurları ilə Naxçıvanın adını ucaldırlar.

Digər bir məsələyə – 90-cı illərdə insanların qidalanmasına nəzər salaq: Hansı ki bütün xəstəliklərin sağalma mərhələsi qidalarla sıx şəkildə bağlıdır. El arasında da belə bir deyim var ki, qida müalicə ilə yarıdır. O vaxt, çoxlarımıza



bəllidir ki, muxtar respublika blokadanın ilk illərinin ağır günlərini yaşayırdı. Ölkə ilə heç bir əlaqə yox idi, təbii qaz, elektrik enerjisi Ermənistan tərəfindən kəsilmiş, dəmir yolu bağlanmışdı. İnsanlar soyuq, qaranlıq evlərdə yaşamağa məhkum olmuşdular. Hələ gəl, gör ki, bu şəraitdə evində də bir xəstən ola. O da vərəmli xəstə. Belə bir atalar sözümüz də var: Var evi kərəm evi, yox evi vərəm evi. Bu atalar sözü elə, sanki o vaxt üçün deyilmişdi. Yoxluq hər evə hakim kəsilmiş, kasıblıq hər kəsin bəlasına çevrilmiş, xəstələrin sonunu gətirmişdi. Belə bir şəraitdə vərəm xəstəliyi artmaya bilərdimi? Evlərdəki şəraitsizlik, su, kanalizasiya sisteminin olmaması, soyuq, rütubət, üstəgəl də, ərzaq qıtlığı, ən dəhşətlisi isə tapa bildiyimiz ərzağın belə, mənşəyinin bilinməməsi həyat üçün çox təhlükəli idi. O zaman muxtar respublika ərzaqla, ancaq idxal hesabına az-çox təmin olunurdu. Heç vaxt görmədiyimiz, şama oxşar yağlardan istifadə olunurdu evlərdə. Geni dəyişdirilərək istehsalı çoxaldılan ərzaqlar baha qiymətə insanlara satılırdı. Hələ bu, məsələnin bir tərəfidir. Digər tərəfi isə həmin məhsulların sanitar vəziyyəti, onları hansı vəziyyətdə olan bazarlardan, dükanlardan almağımız, ən təhlükəlisi isə həmin məhsulların rütubətli, kif basmış anbarlarda saxlanılması idi. Vərəm xəstəliyinin artma səbəblərindən birinin rütubət, antisanitariya olduğuna nəzər salsaq, o zaman məhsulların saxlanıldığı uyğunlaşdırılmış, divarlarından su süzülən, havalandırılmayan, nəmişlikdən nəfəs kəsilən anbarlardan, mağazaların qarşısına, günün altına düzülən kolbasa məhsullarından axan yağlardan, baytar nəzarətinin olmaması səbəbindən ətin antisanitar şəraitdə satışından, kəsilmiş heyvanların içalatının çaylara axıdılmasından, hara gəldi atılmasından, günlərlə ərzaq məhsullarının gediş-gəlişin sıx olduğu küçələrdəki "komission mağazalar"da üstüaçıq saxlanmasından, üzərinin həşərat yığınağı olmasından, ətrafdakı toz-torpağı "canlarına çəkməsindən", çörəyin içindən çıxaraq xoşagəlməz mənzərəyə çevrilənlərdən danışmaq kifayət edir. Son illər isə muxtar respublikada əhalinin payız-qış mövsümündə keyfiyyətli ərzaq məhsullarına olan tələbatının ödənilməsi üçün ümumi tutumu 19 min tondan çox olan 46 soyuducu anbar və 34 istixana təsərrüfatı yaradılmışdır.

Digər bir məsələyə də toxunmaq istəyirəm. Bu, nəinki vərəmin, digər bütün infeksion xəstəliklərin mənbəyi olduğu üçün ondan söhbət açmamaq, ən azından, günahdır. 90-cı illərdə rayon mərkəzlərindəki ictimai yaşayış binalarının qarşısında hər ailə özü üçün bir sanitar qovşaq düzəltmişdi. Buna səbəb nə olmuşdu? Həmin binalara məxsus ümumi sanitar qovşaqlarda baxımsızlıq üzündən antisanitariya o dərəcəyə çatmışdı ki, girilməz olmuşdu. Buna görə də insanlar guya çarə tapmışdılar, lakin düşünməmişdilər ki, bu, daha dəhşətli antisanitariyaya yol açacaqdır. Məişət tullantıları da həmin sanitar qovşaqların kənarlarına atılırdı ki, burada üfunətdən, həşərat yığınağından baş çatlayırdı. Bir-birinə söykənən həmin "tikililər" də illər öncə çayxanalar kimi söküldü, mənzillər su, kanalizasiya sistemi ilə təmin olundu. Məişət tullantılarının hara gəldi atılmaması üçün illər uzunu insanlar arasında maarifləndirmə tədbirləri aparıldı, cərimələr tətbiq olundu. Ona nail olundu ki, bu gün şəhər, qəsəbə, kəndlərdə, yaylaqlarda, istirahət mərkəzlərində belə, insanlar tullantıları artıq xüsusi yeşiklərə atırlar və tullantılar maşın və texnikalar vasitəsilə vaxtlı-vaxtında götürülür.

Məlumdur ki, su həyatdır. İnsanların gün ərzində ən çox qəbul etdiyi sudur. Su sağlamlığın təməli olduğu üçün onunla bir məmləkət sağlam həyat da sürə, infeksion xəstəliklər girdabına da düşə bilər. Necə ki yaşadığımız XXI əsrdə bəzi ölkələr var ki, çirkli su istifadə edildiyinə görə əhalisi arasında infeksion xəstəliklər bir-birini əvəzləyir. Haqqında söhbət açdığım dövrdə elə ki, azacıq yağış yağdı, su kranlarından lilli-çamurlu su axırdı. Son illər həmişə yağış yağanda bunu xatırlayıram və düşünürəm ki, insanlar nə yaxşı ki, o vaxt kütləvi şəkildə məhv olmayıblar. Su nə üçün bulanıq axar ki? Təbii ki, bu sualın bir cavabı var: çünki məişətdə çay suyundan istifadə olunurdu. Su kranlarına çay suyu vurulurdu. O çaylara da insanlar tərəfindən nələr axıdılırdı, onu özləri, bir də Allah bilir. Həmin sudan istifadə dövründə vərəm xəstəsinin sağalmasından necə söhbət gedə, bu xəstəliyin artmasının qarşısı alına bilərdimi? Əlbəttə, xeyr. Ötən illərdə bu problem də öz həllini tapdı. Ən yüksək ərazilərdən, dağ bulaqlarından min kilometrlərlə məsafədən borularla çəkilən sular evlərimizədək gətirildi. İndi Naxçıvanda, nəinki insanlar saf su içir, məi-



şətdə də saf sulardan istifadə edirlər. Çay sularında isə yalnız əkinlərin suvarılması üçün istifadə olunur. Ötən illər ərzində yeni su xətlərinin çəkilməsi, sutəmizləyici qurğuların quraşdırılması, su anbarlarının, nasos stansiyalarının tikilməsi, kəhrizlərin, çeşmələrin bərpa olunması Naxçıvanda su problemini aradan tamamilə qaldırmış, insanların sosial rifahına səbəb olmuşdur.

Mütəxəssislər deyirlər ki, vərəm xəstələri daim açıq havada gəzməlidirlər. Onlar üçün oksigen çox əhəmiyyətlidir. Yəqin, 90-cı illərin Naxçıvanının təbiət mənzərələrini də xatırlayanlar az olmaz. Ümumiyyətlə, sovet dövründən az yaşıllaşdırılan diyarımız 90-cı illərin ağır blokadasına məruz qalanda olub-qalan yaşıllıqlar da insanların ölüm-qalım mücadiləsinin qurbanı oldu. Nəinki yol kənarlarında, meşələrdə, hətta həyətlərimizdə belə, ata-babalarımızın əkdikləri ağaclar çarəsizlikdən kəsilib sobalarda insanların "xilasına" çevrildilər. O dövrdə yaşıllıqlarla yanaşı, təbii ki, meyvə qıtlığı da yaranmışdı. İndi muxtar respublikanın bütün bölgələrində yol kənarlarında, salınan meyvə bağlarında əl uzadılıb dərilən hər növdə olan meyvələr o zamanlar insanların ehtiyacı, arzuları idi. Naxçıvan varlığının heç bir dönəmində bugünkü qədər yaşıllığa sahib olmamışdır. Ötən illər salınan bağlar, yaşıllıqlar, əkilən ağaclar bu gün muxtar respublikanın 20 faizdən artıq yaşıllıq sahəsi, bol oksigenidir. Yerli, keyfiyyətli meyvələr isə ixrac olunan məhsullar sırasındadır.

Müstəqillik illərində bir-birinin ardınca taxılçılığın, meyvə və tərəvəzçiliyin, arıçılığın, kənd təsərrüfatı məhsullarının istehsalının, baytarlıq təbabətinin və digər aqrar sahələrin inkişafı ilə əlaqədar qəbul olunan Dövlət proqramları muxtar respublika iqtisadiyyatının təməl daşları olmaqla, yüksək inkişafının stimuluna çevrildilər. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir ki, bu da ərzaq təhlükəsizliyinin təminatı, əhalinin yerli məhsullardan istifadə etməklə sağlam həyat tərzinə nail olduqlarını şərtləndirən amildir.

Söhbətimizin bu yerində Zeynəb xanım deyir ki, sağlam həyat üçün hərtərəfli tədbirlərin nəticəsində son illər muxtar respublikada bütün sahələr kimi, səhiyyə sistemi də tamamilə yenidən qurulmuş, ən ucqar kəndlərdə həkim ambulatoriyaları və feldşer-mama məntəqələri istifadəyə verilmiş, maddi-texniki bazaları müasirləşdirilmiş, tibb ocaqlarına yeni avadanlıqlar təqdim olunmuşdur. Həkim və tibb işçilərinin sertifikasiya imtahanlarına cəlb olunması isə bu sahənin inkişafını stimullaşdıran başlıca amillərdir. Eyni zamanda ardıcıl şəkildə aparılan əks-epidemik tədbirlər çərçivəsində sanitar-epidemioloji xidmətin də yenidən qurulması, fəaliyyətlərinin gücləndirilməsi, idarə olunan yoluxucu xəstəliklərə qarşı peyvənd işinin təşkili, həkim briqadaları tərəfindən müxtəlif bölgələrdə insanların kütləvi tibbi müayinələrdən keçirilməsi, kütləvi dezinfeksiya tədbirlərinin aparılması, əhali arasında bir çox xəstəliklərin vaxtında aşkarlanmasına və aradan qaldırılmasına, nəinki vərəmin, əksər yoluxucu xəstəliklərin aşağı səviyyəyə enməsinə səbəb olmuşdur.

Muxtar respublikada vərəmə qarşı peyvəndlər, kütləvi tuberkulin və diaskin test sınaqları, flüoroqrafiya müayinələri, fəal formalı vərəmli xəstələrin vaxtında stasionar müalicəyə cəlb edilməsi, tam sağalanadək müşahidə altında saxlanılması, onların yaşayış və əmək şəraitini yaxşılaşdırılması kimi tədbirlərin həyata keçirilməsi vərəmlə xəstələnmənin xeyli azalmasına səbəb olmuşdur. BÇJ vaksininin muxtar respublikanın Doğum Mərkəzində, doğum şöbələrində düzgün və vaxtında tətbiqi nəticəsində bu gün uşaqlar və yeniyetmələr arasında vərəmin miliar vərəm, vərəm meningiti kimi ağır formalarına rast gəlinmir. 90-cı illərin sonlarından başlayaraq vərəm xəstəliyinin aşkarlanması üçün diaqnostikası və müalicəsinin yaxşılaşdırılması artıq bu fəsadların aradan qaldırılmasında müsbət dinamika ilə nəticələnib. 2000-ci ildə ilkin vərəmə yoluxanların sayı 167 nəfərdən 2020-ci ildə 29 nəfərə enib. Hər 100 min nəfərə düşən xəstə sayı isə 6,3 nəfərədək azalıb ki, bu da bir sıra inkişaf etmiş ölkələrdəkindən daha yaxşı göstəricidir.

Hazırda muxtar respublikada vərəm əleyhinə tibbi xidmət 39 çarpayılıq Ağciyər Xəstəlikləri Dispanseri, həmçinin Ordubad, Culfa, Şahbuz, Babək, Kəngərli, Şərur, Sədərək Rayon Mərkəzi xəstəxanalarının və Mərkəzi Uşaq Xəstəxanasının Poliklinika şöbələrində vərəm kabinələri tərəfindən həyata keçirilir. Dispanser 2007-ci ildə əsaslı təmir olunmuşdur. 2010-cu ildə isə



dispanserdə dərmanlara davamlı vərəm xəstələri üçün əlavə şöbə və Bakterioloji laboratoriya, ötən il isə Polimer zəncirvarı reaksiya laboratoriyası qurulub. Dispanserdə çalışan həkim və orta tibb işçiləri müraciət edən xəstələrdə ilkin olaraq qanın kliniki, bəlğəmin, ağciyərlərin rentgenoloji müayinələri və tuberkulin diaqnostika aparırlar. Ehtiyac olan hallarda xəstələrdə əlavə müayinələr – bəlğəmin vərəm çöpünə görə əkilməsi və dərmanlara həssaslığı, ağciyərlərin KT, qanın biokimyəvi və sair müayinələri icra olunur.

Söhbətimiz zamanı Zeynəb xanım maraqlı bir faktı da söyləyir: – Alimlər bütün dövrlərdə uzunömürlülüyün sirrini araşdırmış və sonda belə bir qənaətə gəlmişlər ki, bu, hər şeydən əvvəl, yaxşı yaşayışın nəticəsidir. Onların fikrincə, insan ömrünün bir il uzadılması cəmiyyətin 10 illik tərəqqisinin ekvivalentidir. Əlbəttə, tərəqqi deyəndə həm iqtisadi inkişaf, həm də insanların həyat tərzinin yaxşılaşdırılması, maddi vəziyyətlərinin yüksəldilməsi nəzərdə tutulur. Axı cəmiyyətdə və ayrı-ayrı adamların həyatında baş verən sosial-iqtisadi dəyişikliklər insanların psixoloji durumunun yaxşılaşmasına, beləliklə, onların daha çox yaşamasına gətirib çıxarır.

Həkimin bu sözləri fonunda düşünürəm ki, bəli, bütün xəstəliklərin müalicəsinin əsasında ruh yüksəkliyi, bunu yaradan rifah, rifahın yaratdığı inam dayanır. Bu gün muxtar respublikada bütün evlərdəki istilik, işıq, hərtərəfli şərait, ətrafımızdakı abadlıq, təmizlik, gözoxşayan gözəllik, böyük diqqət və qayğı, ümumilikdə, insan amilinə verilən dəyər əhalinin rahatlığına, firavanlığına xidmət edirsə, xəstə insanlar qarşısında isə şəfaya aparan yolu açır. Dünya şöhrətli Amerika yazıçısı O.Henrinin "Son yarpaq" hekayəsində pəncərə qarşısındakı ağacın son yarpağının düşməsi ilə ölümünün çatacağını düşünən xəstə qız qonşu rəssamın ağacın arxasındakı divara çəkdiyi yarpaqla gündən-günə ümidlənib vərəm xəstəliyindən necə qurtuldusa, ötən əsrin 90-cı illərinin naxçıvanlıları da bir ümidlə və o ümidə inamla çətin günləri arxada qoyub bugünkü inkişaf etmiş Naxçıvana sahib ola bildilər. Və bir də ona əmin oldular ki, hansı bioloji faktor olursa-olsun, onun əsasında Naxçıvanın bugünkü sosial rifahı dayanır. Bu amil sağlamlı, xəstəli, hər birimizi xilasdır. Elə ötən ildən bəri dünyada tüğyan edən, lakin Naxçıvanın az yoluxma və itki ilə xilas olduğu pandemiya kimi...

**Mətanət MƏMMƏDOVA**



***Müasir dövrün idman ictimaiyyətində formalaşan “Sadəcə, daha ağıllı bir rəqiblə qarşılaşarsansa, daha ağıllı ola bilərsən” deyimi cəmiyyətdə bu sahənin nə qədər böyük nüfuza malik olduğunu göstərir. Bəli, bu, elə bir sahədir ki, qarşılıqlı oynanılan bütün idman növlərində hər zaman bir “rəqib”, bir də “qurban” vardır. Bunu daha çox individual oyunlar zamanı görmək mümkündür. Çünki kollektiv idman növlərindən fərqli olaraq fərdi növlərdə güclə yanaşı, zehnin, beyinin daha çox “yorulması” təbii hesab edilir. Yaxşı oyunçunun həmişə yaxşı şansı olduğu kimi, yaxşı da oyun təcrübəsi olmalıdır. Bu baxımdan müasir idmanda şahmatın üstünlüyü bir qədər özünün ağırlığını göstərməkdədir. Şahmatdakı peşmanlıqdan daha böyük peşmanlığın olmadığını qəbul edən zəka sahibləri bu oyunu dünyanın “şahı” ediblər. Öz dövrünün ən güclü şahmatçısı, qrossmeyster Mixail Botvinnikin fikrincə, şahmat analiz sənətidir. Məhz buna görə şahmat taxtasında yalan, ikiüzlülük çox yaşaya bilməz, nəticəsi matdır.***

# Əqlin gimnastikası və ya zəkaların yarışı

Naxçıvan Muxtar Respublikasında da böyük şahmat infrastrukturu yaradılıb. Şahmatın yeni inkişaf strategiyası müəyyənləşdirilib, bu növün inkişafı dövlət səviyyəsinə qaldırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nda da bu öz əksini tapıb. Ali Məclisin Sədri çıxışlarının birində şahmatı gənclərin intellektual və mənəvi inkişafında, asudə vaxtlarının səmərəli təşkilində əvəzsiz vasitə hesab edərək



deyib: ***“Naxçıvan Muxtar Respublikasında şahmatın inkişafına xüsusi diqqət göstərilir, uşaq-gənclər şahmat məktəbləri ilə yanaşı, ümumtəhsil məktəblərində də şahmat fənni tədris olunur. Hər il Naxçıvanda keçirilən beynəlxalq şahmat festivalı və digər şahmat yarışları şahmatın inkişafında, bu sahədə gənc istedadların yetişməsində böyük rola malikdir”.***

Günün reallığıdır ki, muxtar respublika rəhbərinin qayğısı ilə şahmatın inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılır. Şahmat yeganə idman növüdür ki, orta məktəblərdə tədris edilir. Nəticədə, şahmat şagirdlərə düşüncə tərzinin inkişafına, çevik qərar qəbuletmə, mürəkkəb şəraitlərdə taktika seçmək kimi vərdişlərin inkişafına təkan verir. Bu idman növü üzrə yeni kadrların yetişdirilməsi daim diqqət mərkəzində olur. Artıq Naxçıvan aparıcı şahmat mərkəzlərindən biri kimi özünü təsdiqləyib: mötəbər beynəlxalq yarışlara və turnirlərə ev sahibliyi edir.

Muxtar diyarımızda bu növün daha geniş vüsət alması 2018-ci ilə təsadüf edir. Belə ki, Şahmat Federasiyasının konfransında Seymur Talıbovun quruma yeni sədr seçilməsi şahmata muxtar respublikada marağı artırıb, yeni gənc istedadların axtarışı yönündə böyük işlər görülüb. 2019-cu ildən başlayaraq isə federasiya sədrinin təşəbbüsü ilə mükafat fondunun təsis edilməsi şahmatçılar və məşqçi-müəllimlərin bu idman növünə marağını daha da artırıb. Orta məktəblərdə də tədris olunan şahmat dərslərinin yüksək səviyyədə təşkil olunması, onlayn vasitəsilə məktəblilərə təcrübəli müəllimlər tərəfindən ustad dərslərinin keçilməsi, hər ay müəllimlər üçün onlayn seminarlar təşkil olunması Naxçıvanda bu növün hansı səviyyəyə yüksəlməsinin göstəricisidir. Həmçinin ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlara olan ehtiyacının qarşılanmasında federasiya xeyli iş görüb. Belə ki, ötən müddət ərzində şahmatın yüksək səviyyədə tədrisini təmin etmək üçün Şahmat Federasiyası tərəfindən şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan “Pillə-pillə”, şagirdlərin şahmata olan marağını və artan tələbatı nəzərə alaraq dərslik kimi nəzərdə tutulan “Debütdə buraxılmış səhvlərə aid 1000 oyun” kitabları nəşr olunaraq ümumtəhsil məktəblərinə verilib.



Bundan əlavə, müəllimlərin peşəkarlıq səviyyəsinin yoxlanılması məqsədilə Təhsil Nazirliyi və Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə müntəzəm olaraq sertifikasiya imtahanları keçirilir, müəllimlər üçün seminarlar təşkil edilir.

Şahmat dostluq kimi tərəfdaş tələb edir. Naxçıvanda ilk dəfə keçirilən şahmat üzrə kişilər və qadınlar arasında Azərbaycan çempionatı bir daha diyarımızda bu növə olan sevginin təzahürüdür. Niyə məhz Naxçıvan? Bu sualın bir çox cavabı var...

-İlk olaraq Naxçıvan Muxtar Respublikası regionda pandemiyanın ən az yayıldığı yerdir. Mövcud şərait imkan verir ki, Azərbaycan çempionatı ilə yanaşı, bir çox beynəlxalq turnirlər də Naxçıvanda keçirilsin;



-Naxçıvanda şahmatın inkişafına göstərilən dövlət qayğısı daim hiss olunur, bu sahədə sistemli və ardıcıl işlər görülür. Ölkə çempionatının da məhz burada keçirilməsi bir daha şahmata olan qayğının bariz nümunəsidir. Uğurlu nəticələrin əldə edilməsi üçün vacib olan amillərdən biri istəkdirsə, ikincisi yaradılan şəraitdir. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, muxtar respublikanın rayonlarında isə uşaq-gənclər idman və şahmat məktəbləri tikilib istifadəyə verilib, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur;

-Azərbaycan çempionatının muxtar respublikamıza həvalə edilməsi yerli Şahmat Federasiyasının gördüyü işlərin bəhrəsidir. Federasiya pandemiya dövrünün olmasına baxmayaraq, bu müddət ərzində onlayn yarış və tədbirlər keçirərək şahmatçıların sevimli idman növlərindən kənarda qalmamasını təmin edib;



-Ölkə birinciliyinə ev sahibliyi edən Naxçıvan qonaqlarını ən yüksək səviyyədə qarşılamağı bacardı. Əslində, bu, federasiya üçün yad hadisə deyil. Belə ki, uzun müddətdir, diyarımızda təşkil edilən beynəlxalq şahmat festivalları artıq Naxçıvanın bu sahədə nəyə qadir olduğunun göstəricisidir;



-Kişilər və qadınlar arasında Azərbaycan çempionatının Naxçıvanda təşkilini Azərbaycan Şahmat Federasiyasının Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasına hədiyyəsi kimi də qələmə vermək olar. Niyyəsinə gəlincə, yerli federasiyamızda struktur dəyişikliyindən sonra ilk böyük yarışa ev sahibliyi etməsi təqdirəlayiqdir. Azərbaycan Şahmat Federasiyası bu qərarı verməklə həm də Naxçıvanda şahmatın inkişafını digər regionlar üçün nümunə göstərmiş oldu;

-İlk dəfə olaraq Bakıdan kənarda təşkil olunan ölkənin bir nömrəli yarışında Naxçıvan həm də bir ilkə imza atdı. Belə ki, turnir digərləri ilə müqayisədə böyük zallarda yox, səhnədə təşkil olundu ki, bu da çempionatda iştirak edən hər bir zəka sahibi üçün əlavə stimul yaratdı;

-Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası yarışı yüksək səviyyədə təşkil etməklə həm də Naxçıvanın turizm potensialını nümayiş etdirmiş oldu. Şahmatçıların qonaqlanması ilə yanaşı, onların şəhərimizin gəzməli-görməli yerlərində çəkilən fotolarını sosial şəbəkələrdə paylaşmaları, eyni zamanda “Şərq qapısı” qəzetinə və digər kütləvi informasiya orqanlarına gündəlik olaraq açıqlamalar verməsi Naxçıvanın daha geniş əhatədə tanınmasına zəmin yaratdı;

-Naxçıvan hər zaman ilklərə imza atıb və atmaqda davam edir. Bu çempionatda isə Azərbaycanın ən güclü 12 şahmatçısının mübarizəsi tarixə bir ilk kimi yazıldı;

-Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası bu çempionata mükəmməl ev sahibliyi etməklə həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın icrası yönündə mühüm addım atmış oldu;

-Çempionat zamanı yaddaqalan ən önəmli məqam isə ilk gedişlərin edilməsi idi. Belə ki, ilk dəfə olaraq kişilər və qadınlar arasında keçirilən çempionatda federasiya sədri Seymur Talıbov tərəfindən ilk gedişləri edilən zəka sahibləri yarışların sonunda qalib və mükafatçılar sırasına düşə biliblər. Belə ki, kişilərin yarışında ilk gedişi edilən qrossmeyster Nicat Abasov gümüş medala layiq görülüb. Qadınların yarışında isə beynəlxalq usta Gülnar Məmmədova qalib adını qazanıb.

*Göründüyü kimi, Şahmat Federasiyası yarış və turnirləri təşkil edərkən 2 əsas yolla hazırlığını aparır – mənəvi və xüsusi. Bütün idman növlərində olduğu kimi, mənəvi hazırlıq şahmatda daha böyük önəm kəsb edir. Federasiya qazanılan, əldə edilən uğuru, həyata keçirdiyi tədbiri özü üçün yox, Vətən, xalq, ən əsası cəmiyyət üçün qazandığını idmançılara, idman ictimaiyyətinə aşılayır. Bununla cəmiyyətdə qurub-yaratmaq, mümkün qədər dərin iz qoymaq hissini verir. Xüsusi yolda isə federasiya idmançını psixoloji, texniki, taktiki, fiziki və nəzəri baxımdan böyük turnirlərə hazırlamış olur. Bunun üçün Naxçıvan ən ideal məkandır.*

**✍ Ceyhun MƏMMƏDOV**

# İdmançı tələbələr mükafatlandırılıb

*Naxçıvan Dövlət Universitetində XV Universiadasında və 2021-ci ilin I yarısında muxtar respublika üzrə yarışlarda mükafata layiq görülmüş idmançılar təltif olunub.*

Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev qeyd edib ki, hər il aprel, may aylarında universitetdə təqvim planına uyğun tələbələrin universiadası keçirilir. Rektor idman kompleksinin yenidən təmir edilməsini, yeni idman ixtisaslarının əlavə olunmasını muxtar respublikada idmana göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi kimi dəyərləndirib. Vurğulanıb ki, altı ay davam edən XV Universiada yarışlarında idmançı tələbələrlə yanaşı, həmçinin qeyri-ixtisasdan olan tələbələr də yer alıb. Rektor tələbələri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

XV Universiadanın yekun hesabatı mövzusunda çıxış edən universitet İdman Klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Məmmədəli Rəhimov bildirib ki, ümumilikdə, universiadada cəmi 467 idmançı tələbə iştirak edib ki, bunlardan 100 nəfəri əcnəbi tələbə olub. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş peyntbol üzrə Naxçıvan Muxtar Respublikası açıq birinciliyində universitetin komandası 20 komanda arasında II yerə layiq görülüb. Ali və orta ixtisas təhsili müəssisələrinin komandaları arasında peyntbol üzrə keçirilən Naxçıvan Muxtar Respublikası açıq birinciliyində isə Naxçıvan Dövlət Universitetinin komandası I yerə layiq görülüb. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən “Vətən naminə” hərbi-idman oyununda universitetin “Qələbə” komandası bütün rəqiblərinə qalib gələrək I yerə layiq görülüb. Gənclər arasında keçirilən “Hədəf” atış təlimində fərqləndiyinə görə Məhəmməd Şahbazov Fəxri fərmanla təltif edilib. Bakı şəhərində keçirilən cüdo güləşi üzrə Azərbaycan Cüdo Federasiyasının keçirdiyi seçmə yarışında Pedaqoji fakültənin I kurs tələbəsi Abbas Məmmədov II yerə çıxıb, Azərbaycan yığma komandasının tərkibinə daxil edilib. Naxçıvan Şəhər Gömrük İdarəsinin yanından Duzdağ mağarasına qədər keçirilən 5 kilometr məsafəyə kross qaçışında Xatun Orucova II yerə layiq görülüb.



Universiadanın ümumi nəticələrinə görə Tibb fakültəsi ümumi hesabla qalib olub. İqtisad fakültəsi II, Pedaqoji fakültə isə III olub.

Bədən tərbiyəsi və idman ixtisası üzrə II kurs tələbəsi, Dünya ikincisi, Avropa üçüncüsü olan Aslan İsmayılov qazandığı uğurlar haqqında tələbələrə məlumat verib, universiada iştirakçılarını təbrik edib.

Sonda mükafatlandırma mərasimi keçirilib.

**Etibar DƏRBƏNDƏLİYEV**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

***İtmişdir***

Sadiqova Fatma Bağır qızının adına olan Naxçıvan şəhəri, Nizami küçəsi, bina 46, mənzil 44-ə aid 6555 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 470